ədalət 2019.- 11 may.- S.13.

# QƏLƏM GÜCÜ

## And olsun qələmə...

**İlk yazı mən biləni daşa qazılıb. Avesta Zərdüşt düşüncələrinin dəri üzərinə köçürülməsidir... Və sonra yazı əbədiyyət uğrunda dəyişə-dəyişə, yeniləně-yenilənə zaman boyu yol gəlib. Bəlkə də qələmə yetəndə, kağıza çatanda nəfəs dərib. Qələm və kağız düşüncənin işıqlığa çıxmasında əsas vasitə olub. Və bu gün artıq qələm və kağız da az qala keçirilmiş bir mərhələdir. Vaqif İsaqoğlu haqqında beş-üç kəlməlik düşüncələrimi yazıya köçürmək üçün qələmə üz tutmağım təsadüfi deyil. Axı Vaqif İsaqoğlu qələm adamıdır. Doğrudur, gəncliyinin və cavanlığının yarısınacan ömrünü Azərbaycan ordusuna xidmətdə keçirib. "Ordu" qəzetində çalışıb və bu gün yaşının indiki çağında ruhunu diri saxlamasının bir səbəbi də elə onun döyüşçü aləmi ilə bağlılığından, xaraktercə döyüşdə özünü tapmasından irəli gəlir.**

Həyat onsuz da müharibədir və döyüşdür. Ziyalı zəkasında isə döyüş rənglərin savaşıdır - xeyirlə şərin döyüşüdür. Vaqif özünü anlayandan bəri söz uğrunda savaşdadır. Söz isə onun həqiqət tapınacağıdır. Uzun illər öncə onun bir "O" adlı essesini oxumuşdum.

O kimdir... Bu o kəsdir ki, təbiətini fəsillərə uyğun dəyişə bilir, cəmiyyətin siyasi mühitinə uyğun rənglər alır. Vaqif isə saf və sağlam əqidə kimi görmək istədiyi "O"nu artıq faciə qəhrəmanı kimi təsvir edir, amma Vaqif İsaqoğlu təkcə o ilə qurtarmır. Onun konkret adlı, ünvanlı obrazları da az deyil. "Qurban Pirimov", "İsmayıl Osmanlı", "Ağababa Bünyadzadə", "Nizami ucalığı" və s. kitablarında cəmiyyət üçün həyat qoymuş, cəmiyyət üçün enerji mənbəyi olmuş insanları portret əsərlərlə yenidən cəmiyyətə qaytarır, cəmiyyətlə cəmiyyətin sərvəti olan xarakterlər arasında körpü yaradır. Vaqif İsaqoğlu Tovuzun Köhnəqala kəndində doğulub böyüyüb. Mühiti, keçdiyi yol ona zəngin həyat dərsləri bəxş edib. Həyati müşahidələr, ömürdən yığdıqları 70-dən çox kitaba paylanıb. Bu kitablarla o, əslində, həm də özünü yaradıb.



Vaqif İsaqoğlu şairdir. O, həyata enerji mənbəyi olan, mübarizə üçün ilham verən obrazları ən gözəl epitetlərlə süsləyə bilir.

**"Ancaq sənə görə çiçəklər açır,**
**Günəş şəfəq saçır, Ay işıq saçır.**
**Mələklər Allaha səndən söz açır,**
**Dünyanın ən gözəl qadını sənsən".**

Paklığın, saflığın obrazı olan qadın bu bir parçada artıq sıradan bir qadın deyil.

Bəşərin və bütövlükdə insanlığın güc mənbəyidir.

Vaqif İsaqoğlu dəyərli poemaların, həyatla nəfəs alan publisistikanın, gözəl nəsr əsərlərin, hekayələrin müəllifidir.

Xüsusilə onun Qarabağ müharibəsinin tarixi ilə bağlı yazdıqları bir şahid ifadəsi kimi gecələkdə tutarlı mənbə olacaq qədər dəyərdədir. Vaqif İsaqoğlunun uşaq şeirləri də yeni nəslin zövq sarı tərbiyəsində mühüm əhəmiyyət kəsb edər. Bütün bunlarla yanaşı onun ədəbi tənqid, ədəbiyyatşünaslıq yönümündən araşdırmaları var.

Vaqif İsaqoğlunun yazıçı dili onun publisistik ədəbi-tənqidi yaradıcılığına da sirayət edir. Onun həmişə hərəkətdə olan ruhu sağlam təbiətindən güc alır.

"Balaca Koroğlu" kitabında uşaqların dili ilə necə asanlıqla danışa bilirsə, "Tovuzdan məktublar" publisistik əsərində də həm müasir gəncliklə, həm də gələcəyimizin sahibi olacaq insanlarla səmimi, doğru, dürüst polemika apara bilir.

Vaqif İsaqoğlu həmsöhbətinin gözünə dik baxa bilir. Necə ki, cəmiyyətin, insanların - bütövlükdə həyatın gözünə dik baxa bilir.

**And olsun qələmə... Vaqif İsaqoğlu həyatını sözə vermiş sənətkardır.**

**Əli Rza XƏLƏFLİ**